**Azərbaycan Respublikasının**
**Xarici İşlər Nazirliyi**

Haraya: **Təmimi**
Surəti:
Göndərilmə nömrəsi: 5/10-4446/04/17 Tarix 27.02.17.
Sənəd necə göndərilir: Elektron poçt
Səhifələrin sayı : 1
Məhdudluğu qrifi: Adi
Təcililiyi: **Təcili**
Vacibliyi: **Vacib**

09-20 oktyabr 2018-ci ilin tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) növbəti Səlahiyyətli Konfransının keçirilməsi planlaşdırılır.

Qeyd etməliyik ki, 4 ildən bir keçirilən, BTİ-nin ali toplantısı olan Səlahiyyətli Konfransda təşkilatın fəaliyyəti ilə bağlı bir sıra məsələlərlə yanaşı, BTİ-nin Baş Katibi, Baş katibinin müavini, sektor direktorları vəzifələrinə və sözügedən təşkilatın Şurasına seçkilər keçirilir.

Bildirmək istərdik ki, Beynəlxalq Telekommunikasiya İttifaqı - ilk olaraq 1865-ci ilin 17 may tarixində Beynəlxalq Teleqraf təşkilatı kimi fəaliyyətə başlamışdır və 1947-ci ildən etibarən BMT-nin informasiya və kommunikasiya texnologiyaları məsələləri üzrə ixtisaslaşdırılmış orqanı sayılır. Təşkilata 193 üzv daxildir. Azərbaycan Respublikası 1992-ci ilin aprelin 10-da Təşkilata üzv olmuşdur. Həmçinin, ölkəmiz 2014-cü ilin 20 oktyabr-7 noyabr tarixlərində Koreya Respublikasının Busan şəhərində BTİ-nin Səlahiyyətli Konfransı zamanı keçirilmiş seçkilərdə "C" regionundan 94 səslə BTİ-nin Şurasına üzv seçilmişdir. Məlumat üçün qeyd edirik ki, ölkəmizin BTİ Şurasında (48 üzvdən ibarətdir) üzvlük müddəti 2018-ci ilin oktyabr ayında başa çatacaqdır.

NDNC-dən xahiş olunur ki, ölkəmizin, Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) Şurasının 2019-2022-ci illər üçün üzvlüyünə namizədliyin müvafiq qaydada irəli sürülməsini təmin etsin.

BTİ-yə üzv dövlətlərində akkreditə olunmuş diplomatik nümayəndəliklərimizdən, Azərbaycan Respublikasının namizədliyinin BTİ-nin üzv-dövlətləri tərəfindən dəstəklənməsi məqsədi ilə akkreditə olunduğunuz ölkələrin müvafiq qurumları ilə iş aparmaq və nəticələr barədə Mərkəzi məlumatlandırmağı xahiş edirik.

**Hörmətlə,**

**Nazir müavini** **Araz Əzimov**

İcraçı: Nəzrin Hüseynli (MBTİ)
Katiblik üçün istinad: 4/916/17, 23.02.2017